# Gəncə hadisələri və Qurtuluşun başlanğıcı

**1991-ci ildə ikinci dəfə azad nəfəs alan Azərbaycan ciddi təhdid ilə üz-üzə qalmışdı. Müstəqilliyin ilk illərində gələcəyə baxışın müzakirəsi əvəzinə, onun qorunması məsələsi gündəmə gəldi. 1993-cü ilin yayında isə müstəqillik ciddi təhlükə ilə qarşı-qarşıya qaldı.**

SSRİ-nin dağılmasından sonra boşalan hakimiyyət kürsüsünə əyləşən AXC-Müsavat cütlüyünün səriştəsizliyi ölkəni uçuruma sürüklədi. Dövlət idarəçiliyi arxa plana keçdi, xaos və özbaşınalıq meydan sulamağa başladı. Paytaxtdan ucqar kəndlərə qədər hər yanda anarxiyanın küləyi əsirdi. Hətta ilk milli ordu hissələrinin özü də parçalanmış, tabelik anlayışı yoxa çıxmışdı. Kim harada güc tapdısa, orada öz "qanunlarını" yazmağa başladı. O illərdə silah düşmənə deyil, çox zaman vətəndaşa, mərkəzi hakimiyyətə qarşı çevrilirdi.

**(davamı 5-ci səhifədə)**

# Gəncə hadisələri və Qurtuluşun başlanğıcı

**(əvvəli 1-ci səhifədə)**

Ordu birləşmələrinin əksəriyyəti şəxsi maraqlara xidmət göstərir, torpaqlar uğrunda savaşmaq əvəzinə maddi maraqların əsirinə çevrilirdi. Nəzarəti əldən verən, xalqın gözündə etibarını itirən o zamankı hakimiyyət isə ölkəni vətəndaş müharibəsi təhlükəsinə sürüklədi. Gəncə, Lənkəran, Qusar, Şəki kimi bölgələrdə bəzi silahlı qruplaşmalar açıq şəkildə mərkəzi hakimiyyətə qarşı çıxırdı, ölkə parçalanmanın, separatizmin, qardaş qırğınının astanasına gəlmişdi. Amma həmin burulğanda bir ümid çırağı yandı... və tarix öz hökmünü verdi. Vətənin bu ağır günündə xalq Heydər Əliyevi Naxçıvandan Bakıya dəvət etdi. Ümummilli Lider Heydər Əliyev xalqın və respublikanın hakim dairələrinin təkidli dəvətini qəbul etdi, iyunun 9-da Bakıya gəldi və qısa zaman ərzində, Azərbaycanda vətəndaş müharibəsinin qarşısını aldı.



Tarixin bəzən ancaq bir qərardan asılı olduğu günlər var. 1993-cü ilin iyun ayı da məhz belə günlərlə yadda qaldı. Ümummilli lider 4 iyun hadisələrinə belə qiymət vermişdi: "4 iyun hadisələri hakimiyyətdəkilərin fərasətsizliyindən və öz işlərini görə bilməməyindən başlayıb".

Azərbaycan hakimiyyəti isə o çətin məqamda düşünülmüş addımlar atmaq əvəzinə, odun üstünə benzin tökən qərarları ilə ölkəni daha dərin burulğana sürükləyirdi. Həmin dövrdə Surət Hüseynovun rəhbərlik etdiyi 709-cu briqadanın ləğv edilməsi haqqında əmr imzalananda vəziyyət artıq qaynayan qazana dönmüşdü. İyunun 4-də səhər saatlarında dövlətçiliyin sütunları bir daha sınağa çəkildi. Hökumət Gəncədə baş qaldıran hərbi qiyamı yatırmaq üçün 3 minə yaxın hərbçi və iriçaplı hərbi texnika ilə hücuma keçdi. Hava qüvvələri səfərbər edildi, təyyarələr havaya qalxdı, Gəncə hava limanı bombalandı. 709 nömrəli hərbi hissənin kazarmaları dağıdıldı. Müstəqil Azərbaycanın öz içində döyüş cəbhəsi açılmışdı. Lakin gözlənilən baş vermədi - qiyamçılar geri çəkilmədi. Onlar müqavimət göstərməklə vəhşicəsinə qan tökdülər. Prezident qvardiyasının əsgərlərini şəhərdən çıxaracaqlarını vəd edib avtobuslara mindirdilər və sonra onları güllələbaran etdilər. Hökumət qüvvələri məğlub oldu. Qiyamçılar Bakıya doğru hərəkətə keçdi. İdarəetmənin süqutu, siyasi iradənin tükənməsi o qədər aydın idi ki, bu dəstələrin qarşısında duran yox idi. Müqavimətsiz şəkildə paytaxtın qapılarına yaxınlaşdılar və prezidentin istefasını tələb etməyə başladılar. İyunun 14-də isə Nəvahi yaxınlığında hökumət qoşunları ilə qiyamçılar üz-üzə dayandı. Artıq məsələ silahla deyil, siyasi iradə ilə həll olunmalı idi. Ancaq ortada bu iradə qalmamışdı. Parlamentin sədri, baş nazir və üç güc strukturunun rəhbəri ard-arda istefa verdilər. Azərbaycan kapitansız bir gəmi kimi burulğana düşmüşdü.

Bu tarixi dönəmdə xarici təhlükə də içəridəki böhranı daha da dərinləşdirirdi. Ermənistanın işğalçı siyasəti, daşnakların "böyük Ermənistan" xülyası artıq gerçəyə çevrilmək üzrə idi. Azərbaycanın dövlət sərhədləri təkcə fiziki baxımdan yox, siyasi və etnik mənada da parçalanmaq riski ilə üz-üzə qalmışdı. 1993-cü ilin yayında Azərbaycan faktiki olaraq iki cəbhədə mübarizə aparırdı - biri xaricdə düşmənlə, digəri isə içəridə öz daxilində yaranmış anarxiya ilə. Hökumətin zəifliyi, siyasi qərarsızlıq və strukturlaşdırılmamış dövlət aparatının acizliyi milli fəlakətin bir addımlığında olduğumuzu göstərirdi.

Heydər Əliyevin Ali Sovetin sədri seçilməsindən az sonra Əbülfəz Elçibəy Bakını tərk etdi. Dövləti Kələki kəndindən yönləndirilməyə çalışdı. Bu addım ölkənin hansı uçuruma yuvarlandığının təsdiqi idi.

1993-cü il iyunun 15-i Ümummilli Lider Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi. Və həmin andan etibarən ölkənin siyasi, iqtisadi, sosial və hərbi sahələrində dirçəlişin təməli qoyuldu. Ulu öndər ilk addımını vətəndaş qarşıdurmasının qarşısını almaq üçün atdı. Həmin dövrdə Azərbaycanın müxtəlif bölgələrində silahlı birləşmələr hələ də mərkəzi hakimiyyətə tabe olmurdu. Cəbhədə isə itkilər artmaqda, torpaqlar işğal altına düşməkdə davam edirdi. Məhz Heydər Əliyev bütün bunları nəzərə alaraq ilk növbədə ordu quruculuğuna başladı. Əldə silah tutan, lakin pərakəndə fəaliyyət göstərən özünümüdafiə dəstələri birləşdirildi, nizami və vahid komandanlığa tabe olan ordu formalaşdırıldı. Eyni zamanda, ölkədə sabitliyin bərpası üçün hüquqi çərçivələr gücləndirildi, ictimai asayiş təmin edildi. Qanunsuz silahlı dəstələrin zərərsizləşdirilməsi, dövlətçiliyə loyal qüvvələrin irəli çəkilməsi ilə ölkədə sabitlik bərqərar olmağa başladı.

Ardınca iqtisadi dirçəliş üçün mühüm qərarlar verildi. Aclıq, yoxsulluq, sosial böhran içində olan cəmiyyətin dirçəlişi üçün islahatlara başlanıldı. Dövlət idarəçiliyində şəffaflığın artırılması, xarici sərmayənin ölkəyə cəlbi və enerji resurslarının beynəlxalq bazara çıxarılması istiqamətində mühüm layihələr reallaşdı. "Əsrin müqaviləsi" ilə Azərbaycan öz enerji siyasətinin konturlarını beynəlxalq miqyasda cızdı. Bu prosesin məntiqi davamı olaraq, ölkənin beynəlxalq nüfuzu yüksəldi, əməkdaşlıq təklif edən dövlətə çevrildi.

2020-ci ildə başlayan 44 günlük Vətən müharibəsində Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdi. Heç şübhəsiz, Prezident cənab İlham Əliyevin liderliyi ilə əldə olunan Zəfərimiz 1993-cü ilin iyununda atılmış təməl daşlarının, sabitliyin, quruculuğun, liderlik məktəbini

**Nurlan ABDALOV,**
**"Respublika".**

Respublika .- 2025.- 4 iyun(№115).- S.1;5.